26 may 2014-cü il tarixində Yaponiya hökümətinin “Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı” çərçivəsində aşağıda adı qeyd olunan İmzalanma və Açılış Mərasimləri keçirilmişdi.

## 1. “Şəmkirin üç kəndi üçün su təchizatı sisteminin inşası” layihəsi

Layihənin əsas məqsədi Şəmkirin üç kəndinin sakinlərinin içməli suya olan ehtiyacını təmin etmək üçün su təchizatı sistemini inşa etməkdir. Lyihədən faydalanacaq şəxslərin sayı 4,300 nəfəri əhatə edir. Sözügedən layihənin ümumi dəyəri **121,722 ABŞ dolları təşkil edir.**

Səfir cənab Tsuquo Takahaşi, Şəmkir rayon İcra Hakimiyyətinin Başçısı cənab Nazim Veyisov, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti cənab Novruz Aslanov və xanım Məlahət İbrahimqızı (deputat) mərasimdə iştirak etdilər.












## 2. “Şəmkirin Sabirkənd kəndində tibb məntəqəsinin tikintisi”layihəsi

Layihənin əsas məqsədi Sabirkənddə yeni tibb məntəqəsi tikməklə həmin kəndin və ona qonşu olan digər üç kənd sakinlərinə göstəriləcək tibbi xidmətin səviyyəsini yaxşılaşdırmaqdır.

Layihədən faydalanacaq şəxslərin sayı 18,700 nəfərdən çoxdur. Sözügedən layihənin ümumi dəyəri **120,506 ABŞ dolları təşkil edir.**

Səfirin Azərbaycan dilində çıxışı



160 nəfərə yaxın kənd sakini mərasimdə iştirak etdi



Soldan sağa: Səfir, İcra Başçısı N.Veyisov, Məlahət İbrahimqızı, Birinci Müavin cənab Vəliyev, Mərkəzi Xəstəxananın rəhbəri cənab Əhmədov



Sabirkənd Tibb Məntəqisinin dəhlizi



Palata



Ginekoloji otaq

